


*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 124 (24.011)

*5 iyul 2022-ci il, çərşənbə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


*Təhsil millətin gələcəyidir*

## Naxçıvanda təhsil sahəsində gender məsələsi uğurlu həllini tapıb

***“Gender” anlayışı XX əsrin sonunda formalaşıb. Qadın və kişilər arasında sosial bərabərlik “gender bərabərliyi” kimi qəbul edilir. Məlumdur ki, elmi-texniki tərəqqi bəşəriyyətə bir sıra yeni texnoloji nailiyyətlər bəxş edib. Bu da müxtəlif proseslərin həyata keçirilməsində qadın və kişilərin fiziki imkanları arasında mövcud olan təbii fərqlərin aradan qaldırılmasına, yaxud kəskin surətdə azalmasına şərait yaradıb. Yeni texnoloji nailiyyətlər, eyni zamanda qadınların ev işlərinə ayırdığı vaxtın qənaətini təmin edir, qadın və kişilərin cəmiyyətdəki vəziyyətində mövcud olan fərqlərin aradan götürülməsi məqsədi daşıyır.***

Gender problemlərinin həlli, ümumilikdə, qadın və kişi arasında əmək bölgüsü münasibətlərinin yaxşılaşmasına və insan potensialının inkişaf göstəricilərinin yüksəlməsinə xidmət edir. Onu da qeyd edək ki, bütün sahələrdə olduğu kimi, gender bərabərliyi təhsil sahəsində də aktuallığını saxlayan məsələlərdən biridir.

Tarixə nəzər salsaq, görərik ki, ölkəmizlə yanaşı, onun ayrılmaz tərkib hissəsi olan Naxçıvanda da qadınlar arasında maarif işinin inkişafında kişilərlə yanaşı, ziyalı qadınlar da mühüm xidmətlər göstərmişlər. Görkəmli xeyriyyəçi H.Z.Tağıyevin qız məktəbini bitirmiş Nazlı xanım Tahirova 1912-ci ildə Naxçıvan şəhərində qız məktəbi açmışdır. Bununla bərabər görkəmli pedaqoq və yazıçı Rəşid bəy Əfəndiyevin 1910-cu ildə Naxçıvan şəhərində türk-qız məktəbini açaraq özünün də orada dərs deməsi, 1917-ci ildə N.Nəcəfovanın həmin məktəbə müdir təyin edilməsi və 1920-ci ilədək orada işləməsi artıq məktəb işinin mütərəqqi yolla inkişaf etdiyini göstərir.

Naxçıvanda 1920-1930-cu illərdə maarif sahəsində əldə edilən mühüm nailiyyətlərdən biri də qadınlar arasında savadsızlığın ləğv edilməsi məsələsi idi. Həmin dövrdə kənd qadınları ilə şəhərdə yaşayan qadınların təhsil səviyyəsində ciddi fərqlər var idi. Bəzi kəndlərdə qızların təhsil alması məsələsi ilə əlaqədar mövhumatçı münasibətlər və düşüncələr yenə də qalmaqda idi. Bu məsələlər ulu öndər Heydər Əliyevin hakimiyyətdə olduğu dövrlərdə, 70-80-ci illərdə öz həllini tapmış oldu.

Ümumiyyətlə, muxtar respublikada 1970-ci ildə 10 illik orta ümumtəhsilə keçidlə əlaqədar olaraq ibtidai və səkkizillik məktəblərin sayı azalmış, orta məktəblərin sayı isə artmışdı. Həmin illərdə qızların orta ümumi təhsilə cəlb edilməsi sahəsində əsl inqilab baş verdi. Məktəbyaşlı qızların hamısı məktəbə gedirdi ki, bu da şagirdlərin ümumi sayında onların üstünlük təşkil etməsinə gətirib çıxarmışdı.

Müstəqillik əldə edildikdən sonra bu məsələ, yəni təhsildə gender bərabərliyi əsas prioritet məsələlərdən birinə çevrildi. Ümummilli liderimiz təhsilə üstün istiqamət verərək ***“Təhsil millətin gələcəyidir”*** deyirdisə, bu yolu davam etdirən ölkə rəhbəri cənab İlham Əliyev təhsilə ***“Azərbaycanın gələcəyini müəyyən edən prioritet sahə”*** kimi yüksək dəyər verərək iqtisadi potensialın insan kapitalına çevrilməsini bir vəzifə olaraq qarşıya qoymuşdur.

Ölkəmizdə təhsilin inkişafına göstərilən böyük diqqət artıq bəhrələrini verməkdədir. Qürur duyulasıdır ki, bu gün muxtar respublikada bu istiqamətdə həyata keçirilən tədbirlər bir nümunə gücündədir.

Qeyd olunmalıdır ki, təhsil sahəsində əldə olunan uğurlar təkcə məktəblərin maddi-texniki bazasının möhkəmləndirilməsi ilə məhdudlaşmır. Təhsil islahatlarının həyata keçirilməsi istiqamətində atılan addımlar təhsillə bağlı dəyərlərin yeniləşdirilməsi, müasirləşdirilməsi və son nəticədə, cəmiyyətin yeni keyfiyyətə nail olması üçün təhsil faktorundan istifadə edilməsinə şərait yaradır.





Günümüzdə muxtar respublika əhalisinin 230 min nəfərdən, yəni yarıdan çoxu qadındır. Onların ictimai-siyasi fəaliyyəti ildən-ilə artmaqdadır. Bunu statistik rəqəmlər də təsdiq edir. Belə ki, muxtar respublikada təhsil sahəsində işləyənlərin 9 min 987 nəfəri, yaxud 68 faizi qadındır. Təhsilin ilk pilləsi sayılan məktəbəqədər müəssisələrdə, demək olar ki, hamısında qadınlar çalışır və rəhbər vəzifədə çalışanların da hamısı bu cinsin nümayəndələridir. Muxtar respublikada elmlər doktorlarının 3-nü, fəlsəfə doktorlarının isə 100-nü qadınlar təşkil edir.



Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin 2021-ci ilin statistik məlumatlarının təhlili göstərir ki, hazırda muxtar respublikanın rayonlarında təhsil sahəsində əmək müqaviləsi ilə işləyən qadınların sayı Şərur rayonunda 1395, Babək rayonunda 1051, Ordubad rayonunda 571, Culfa rayonunda 580, Kəngərli rayonunda 360, Şahbuz rayonunda 391, Sədərək rayonunda 100, Naxçıvan şəhərində 1380 nəfərdən ibarət olmaqla muxtar respublikanın rayonlarında əmək müqaviləsi ilə işləyən qadın müəllimlərin sayı təhsil üzrə 5828 nəfərdir.

Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin tabeliyində olan orta ixtisas və peşə təhsilli müəssisələrində tədris üzrə çalışan qadınların sayı isə aşağıdakı kimidir:

Naxçıvan Dövlət Texniki Kollecində cəmi 41 qadın (ştat üzrə 31; alitəhsilli 31; müqavilə əsasında cəmi 10; alitəhsilli 10) işləyir.

Peşə təhsilli müəssisələri üzrə Naxçıvan Şəhər Peşə Liseyində 11 qadın ( ştat üzrə 8; alitəhsilli 7; orta ixtisas təhsilli 1; müqavilə əsasında 3; orta təhsilli 3), Naxçıvan Texniki Peşə və Sürücülük Məktəbində 6 qadın (ştat üzrə 2; orta ixtisas təhsilli 2; müqavilə əsasında 4; alitəhsilli 3; orta ixtisas təhsilli 1), Şərur Texniki Peşə və Sürücülük Məktəbində 6 qadın ( ştat üzrə 5; alitəhsilli 1; orta ixtisas təhsilli 4; müqavilə əsasında 1; orta təhsilli 1), Ordubad Texniki Peşə və Sürücülük Məktəbində 6 qadın (ştat üzrə 5; alitəhsilli 3; orta ixtisas təhsilli 2; müqavilə əsasında 1; orta təhsilli 1), peşə məktəbləri üzrə cəmi 29 qadın (ştat üzrə 20; alitəhsilli 11; orta ixtisas təhsilli 9; müqavilə əsasında 9; alitəhsilli 3; orta ixtisas təhsilli 1; orta təhsilli 5) işləyir.

Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin tabeliyində fəaliyyət göstərən məktəbdənkənar təhsil müəssisələrində işləyən qadın müəllimlər haqqında isə məlumat belədir: Nazirliyə birbaşa tabe olan müəssisələr üzrə cəmi 188 qadın (alitəhsilli 165; orta ixtisas təhsilli 15; orta təhsilli 8) işləyir.

Naxçıvan Şəhər Təhsil Şöbəsi üzrə 8 qadın (alitəhsilli 5; orta ixtisas təhsilli 1; orta təhsilli 2), Şərur Rayon Təhsil Şöbəsi üzrə 57 qadın (alitəhsilli 55; orta təhsilli 2), Babək Rayon Təhsil Şöbəsi üzrə 58 qadın (alitəhsilli 55; orta ixtisas 3), Ordubad Rayon Təhsil Şöbəsi üzrə 32 qadın (alitəhsilli 17; orta ixtisas təhsilli 7; orta təhsilli 8), Culfa Rayon Təhsil Şöbəsi üzrə 37 qadın (alitəhsilli 32; orta ixtisaslı 2; orta təhsilli 3), Kəngərli Rayon Təhsil Şöbəsi üzrə 14 qadın (alitəhsilli 12; orta ixtisas təhsilli 1; orta təhsilli 1). Şahbuz Rayon Təhsil Şöbəsi üzrə 34 qadın (alitəhsilli 30; orta ixtisas təhsilli 3; orta təhsilli 1), Sədərək Rayon Təhsil Şöbəsi üzrə cəmi 4 qadın (alitəhsilli 3; orta təhsilli 1) işləyir. Ümumi olaraq Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin tabeliyində olan orta ixtisas və peşə təhsili müəssisələrində 432 qadın işləyir ki, bunun da 374-nü alitəhsilli, 32-ni orta ixtisas təhsilli, 26-nı orta təhsilli təşkil edir.

2015-ci ildə muxtar respublikanın ali təhsil müəssisələrinə – Naxçıvan Dövlət Universitetinə və Naxçıvan Müəllimlər İnstitutuna daxil olanların böyük hissəsini qız abituriyentlər təşkil edib. “Naxçıvan” Universitetində isə qız-oğlan nisbəti bir-birinə yaxın olub.

2018-2019-cu tədris ilində ali təhsil müəssisələrinə daxil olan abituriyentlərin 819 nəfərini qızlar təşkil edib. Həmçinin 500-700 intervalında bal toplayanların 172 nəfəri, yaxud 61,2 faizi qızlar olub. 2020-2021 tədris ilində isə 600-dən yüksək bal toplayan abituriyentlərin 11 nəfəri qız olub.

Əldə olan statistik məlumatlara əsasən deyə bilərik ki, təkcə 2019-2020-ci tədris ilində Naxçıvan Dövlət Universitetinin əyani şöbəsində təhsil alan 4423 tələbənin 2159-nu qızlar təşkil edib. Həmin ildə universitetin 921 məzunundan 422-si qız olub. 2019-2020-ci tədris ilində Naxçıvan Dövlət Universitetinin qiyabi şöbəsində 912 nəfər oxuyub, bunlardan 323-ü zərif cinsin nümayəndəsi olub. Həmin tədris ilində 454 nəfər məzundan 143 nəfərini qadınlar təşkil edib.

Belə müqayisə göstərir ki, qadınlar ali təhsil müəssisəsində kişilərdən heç də geri qalmırlar. Bir məsələni də, xüsusilə qeyd etmək istərdim ki, universitetdə elə ixtisaslar vardır ki, bu ixtisaslarda vaxtilə qızların oxuması yaxşı qarşılanmırdı. 2019-2020-ci tədris ilində Fiziki tərbiyə və çağırışaqədərki hərbi hazırlıq müəllimliyi ixtisasında 2, Bədən tərbiyəsi və idman ixtisasında isə 196 tələbədən 7-si qız olub.

Ali təhsil ocaqlarında oxuyanların gender tərkibindən söz düşmüşkən belə bir məqama toxunmaq istərdik. Bu gün ödənişli təhsil almaqla bağlı valideynlər nədənsə oğlan uşaqlarının təhsilinə pul ayırmağa üstünlük verdiklərindən qızlar ikinci planda qalırdılar. Həm bu hal, həm də oğlan və qız abituriyentlərin peşə seçimlərindəki fərqlər əmək bazarında mövcud olan gender seqreqasiyasını gücləndirirdi. Çox yaxşı haldır ki, artıq valideynlərin bu cür yanaşmaları aradan qalxıb.

Muxtar respublikada 1992-ci ildə ancaq qızların oxuması üçün yaradılan lisey Azərbaycanda yeganə qızlar məktəbidir. Lisey nümunəvi təlim-tədris prosesi ilə seçilir. 2011-ci ildə 608 şagird yerlik Naxçıvan Qızlar Liseyinin binası yenidən qurulub, tədris üçün müasir infrastrukturla zənginləşdirilib. Hazırda muxtar respublikanın 60 qabaqcıl müəllimi burada təhsil alan 380 qız şagirdin təlim-tərbiyəsi ilə məşğul olur. Onlardan 4-ü “Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi” fəxri adına layiq görülüb, 1-i “Tərəqqi” medalı ilə təltif edilib, 2-si isə “İlin ən yaxşı müəllimi” müsabiqəsinin qalibi olub. Son 5 il ərzində təhsil müəssisəsi məzunlarından 49 nəfəri 500-700 intervalında bal toplayıb. Lisey fəaliyyətə başlayandan bu tədris ilinədək məzunlardan 5-i “Qızıl”, 3-ü “Gümüş” medala, 16-sı isə Fərqlənmə attestatına layiq görülüb.

Dünya praktikası ilə əlaqədar ədəbiyyatlara nəzər saldıqda, qadınların rəhbərlik etdikləri məktəblərdə nəticələrin daha yüksək olduğunu görmək mümkündür. Azərbaycandakı statistik məlumatlara əsasən isə müəllimlərin əksəriyyətinin qadınlardan ibarət olmasına baxmayaraq, məktəb idarəetməsində kişilər üstünlük təşkil edirlər. Ancaq bir məsələni xüsusilə vurğulamaq istərdik ki, muxtar respublikanın təkcə Naxçıvan şəhərindəki məktəblərində vəzifə tutan direktorların çoxu zərif cinsin nümayəndəsidir. Dəqiq desək, 20 məktəbdən 17-nin direktoru qadındır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***“Azərbaycan qadınının ictimai həyatımızdakı mövqeyi dilimizə, Vətənimizə, torpağımıza, dövlətimizə, milli dəyərlərimizə və Azərbaycançılıq məfkurəsinə sədaqət nümunəsi olmuşdur və gələcəkdə də olacaqdır”.***

**Sevinc ABBASOVA**
*tarix elmləri doktoru*

## Gənc əsgərlər növbəti xidmət yerlərinə yola salınıblar



*Bu gün ordumuzun sıralarına daxil olan gənc əsgərlər hərbi hissələrdə və təlim mərkəzlərində ümumqoşun, ixtisas və fiziki hazırlıq üzrə dərs və məşğələlər keçərək ən çətin döyüş tapşırıqlarını yerinə yetirəcək peşəkar əsgərlər kimi hazırlanırlar. Əlahiddə Ümumqoşun Orduda aprel ayı ərzində həqiqi hərbi xidmətə çağırılmış gənc əsgərlər də ixtisas hazırlığı kurslarını uğurla bitirərək növbəti xidmət yerlərinə yola salınıblar.*

Gənc əsgərlərin ixtisas hazırlıqlarını uğurla bitirmələri münasibətilə keçirilən mərasimdə şəhidlərimizin əziz xatirəsi yad edilib və Dövlət Himnimiz səsləndirilib.

Çıxış edən zabit, əsgər və valideynlər kurslar zamanı keçirilən məşğələlərdə peşəkarlaşan gənc əsgərlərə xidmətlərində uğurlar arzulayıblar.

General-mayor Rəhim Cəfərov ixtisas hazırlığı kurslarını uğurla başa vurmaları münasibətilə Əlahiddə Ümumqoşun Ordu komandanı, general-polkovnik Kərəm Mustafayevin təbrikini şəxsi heyətə çatdırıb. Bildirilib ki, 104 yaşlı Azərbaycan Ordusunun tərkib hissəsi kimi Əlahiddə Ümumqoşun Ordunun da maddi-texniki bazasının möhkəmləndirilməsinə, ən müasir silah-sursat və texnika ilə təminatına xüsusi diqqət yetirilir. Azərbaycan Respublikası Prezidentinin diqqət və qayğısı, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin fədakar əməyi sayəsində bütün birləşmə və hissələrdə, yüksək dağlıq şəraitdəki mövqelərdə müasir xidmət şəraiti yaradılıb. Əminliklə deyə bilərik ki, ixtisas hazırlığı kurslarını uğurla başa vuran əsgərlərimiz Vətənimizin azadlığı və ərazi bütövlüyü uğrunda ən çətin döyüş tapşırıqlarını şərəflə yerinə yetirəcəklər.

Çıxışların ardından əsgərlər müxtəlif hərbi ixtisaslar üzrə qazandıqları bilik və bacarıqları nümayiş etdiriblər.

Yolasalma mərasimi şəxsi heyətin təntənəli keçidi ilə başa çatıb.

**Kənan CƏLİLOV**

# Akademik İsa Həbibbəyli:

## "Naxçıvan planlı, sistemli şəhərsalmaya görə ölkəmizdə bir nümunə ola bilər"

*Ötən bazar günü heç zaman yaddaşımdan silinməyən və bir ömür fəxarət hissi ilə xatırlayacağım əlamətdar gün idi mənim üçün. Həmin gündən bir gün əvvəl axşam baş redaktorumuz zəng edərək akademik İsa Həbibbəyli və Azərbaycanın tanınmış görkəmli ziyalılarının Naxçıvanda mənəvi istirahətdə olduqlarını dedikdə ailəmlə birlikdə bir neçə gündür, bazar günü üçün qərarlaşdırdığımız planı anında düşüncəmdə ləğv etdim. Çünki Azərbaycanın dəyərli, görkəmli, sayılıb-seçilən ziyalıları ilə görüşüb, söhbət etmək mənim üçün çox əhəmiyyətli və son dərəcə qürurverici olacaqdı.*

Ziyalıların "Saat Meydanı" turistik istirahət mərkəzində olduğundan məlumatlı idim deyə səhər saat 8-dən artıq orada səbirsizliklə qonaqlarla görüşməyi gözləyirdim. Birdən mehmanxananın foyesində ***"525-ci qəzet"in baş redaktoru Rəşad Məcid***i gördüm. Sevinc və həyəcanla ona yaxınlaşıb özümü təqdim etdim. Maraqlı həmsöhbət olan dəyərli qələm sahibimizin diyarımızla bağlı fikirləri qeyri-adi qürur hissi doğurdu: – Naxçıvana budəfəki gəlişimiz qeyri-rəsmi



bir səfər idi. AMEA-nın vitse prezidenti, akademik İsa Həbibbəyli, Azərbaycan Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı Anar, Rəssamlar İttifaqının sədri, Xalq rəssamı Fərhad Xəlilov, Bakı Musiqi Akademiyasının rektoru, Xalq artisti Fərhad Bədəlbəyli və mənim iştirak etdiyim tədbirlərin birində İsa müəllim təklif etdi ki, Batabatın ən gözəl çağıdır, gedək Naxçıvana təbiətlə tanış olaq... Əvvəlcə ulu öndərin abidəsinə gül dəstəsi qoyduq. Heydər Əliyev Muzeyində dövlətimizin qurucusu, memarı, görkəmli dövlət xadiminin həyat və fəaliyyətini təbliğ edən eksponatlarla tanış olduq. Fərhad Xəlilova dahi şəxsiyyət Heydər Əliyevin məktəbli olarkən çəkdiyi rəsmlər maraqlı idi. Həmin rəsmlər də orada eksponat kimi nümayiş olunurdu. Müşahidə etdim ki, Fərhad Xəlilov şəkillərlə bağlı məlumatları çox maraqla dinlədi və həmin şəkillərin bir neçə fotonüsxəsini götürdü. Bu görüşlərdən sonra biz Batabata yola düşdük. Son illərdə iki dəfə jurnalistlərlə birlikdə Naxçıvana gəlmişik. Burada iqtisadyönümlü müəssisələrdə, qəzetdə, televiziyada da olmuşuq. Naxçıvan haqqında əyani məlumatım var idi. Bu diyara hər gələndə buradakı yaxşı mənada dəyişikliklərin şahidi oluruq. Batabatın ən gözəl vaxtında xoş təbiət mənzərələri, o yerlərin tarixi ziyalı dostlarımda böyük maraq doğurdu. Qısa bir müddət ərzində gəzintidən böyük zövq aldıq. Xüsusilə onu qeyd etmək istərdim ki, Naxçıvana əvvəlki səfərlərimdə də bu diyarın yollarının abadlığı məni heyrətləndirib. Bu, həqiqətən də, müsbət haldır. Vaxtilə deyirdilər ki, Naxçıvandan Batabata bir neçə saata gedirlər, ancaq indi həmin yolla Batabata getmək vaxt etibarilə dəfələrlə azalıb. Biz orada sadə kənd adamlarıyla, arı təsərrüfatçıları, həmçinin kənd təsərrüfatı işləri ilə məşğul olanlarla söhbət etdik, bir yazıçı kimi onların fikirləri də mənim üçün çox maraqlı idi. Hər biri gün-güzəranından ürəkdolusu danışdı. Bu, doğrudan da, böyük xoşbəxtlikdir. Batabatın bumbuz bulaqlarından su içdik. İsa müəllimin təqdimatında Naxçıvanın tarixi, təbiəti bizdə bu diyara qarşı daha böyük heyranlıq doğurdu. Qısa bir səfər olsa da, mənəvi zəngin anlar yaşadıq, Naxçıvanın gözəlliklərindən böyük zövq aldıq.

Rəşad Məcidə dəyərli müsahibə üçün təşəkkür edib, digər ziyalıları necə görə biləcəyim haqqında məlumat almaq istəyərkən ***akademik İsa Həbibbəyli*** mehmanxananın foyesinə daxil oldu. O an nə qədər böyük sevinc hissi yaşadığımı sözlə ifadə edə bilmərəm. Cəld ayağa qalxıb, İsa müəllimə yaxınlaşdım. Özümü təqdim etdikdən sonra Naxçıvanla bağlı budəfəki səfər təəssüratlarını bizimlə bölüşməyini xahiş etdim. Özünəxas şəkildə və hərzamankı səmimiyyətilə "böyük məmnuniyyətlə", – dedi: – Əvvəla, onu qeyd etmək istəyirəm ki, Naxçıvana iki aydan gec olmayaraq gəlirəm. Amma tez-tez gəlməyimə baxmayaraq, Naxçıvanda yeniliklər görürəm. Naxçıvan daim yeniləşir və inkişaf edir. Azərbaycanın görkəmli ziyalıları ilə budəfəki səfərimdə onlara yenilikləri göstərərkən bir daha yəqin etdim ki, yeniliklər mən gördüklərimdən də çoxdur. Bu dəyişiklikləri mən hava limanından başlayaraq gördüm. Orada yeni tikintilər aparılıb, strukturda fərqliliklər gördüm. Hava limanından şəhərə doğru yol alarkən Naxçıvançayın kənarında tikilən mehmanxana diqqətimi çəkdi. Bu tikili ilk baxışda Möminə xatın türbəsinin quruluşunu əks etdirir. Azərbaycanın görkəmli ziyalılarının Naxçıvandakı bu inkişafı görməsi və qiymətləndirməsi bu torpağın övladı kimi mənim üçün son dərəcədə sevincli və əhəmiyyətli idi. Onu da qeyd edim ki, Naxçıvanda inkişaf həm sistemli, planlı şəkildə gedir, həm də yüksək keyfiyyətlə həyata keçirilir. Düşünürəm ki, Naxçıvan planlı, sistemli şəhərsalmaya ölkəmizdə bir nümunə ola bilər. Yaddaqalan və xoş bir xatirəyə çevrilən dünənki Batabat səfərimizdən də danışmaq istərdim. Batabatın elə vaxtı idi ki, orada təbiətin bütün gül-çiçəkləri açmışdı. Bu, təxminən, iyunun sonları, iyulun əvvəlləri baş verir. Mən də bu torpaqda yaşayan, bu diyardan çıxan bir ziyalı kimi bilirdim ki, Batabatın indiki mövcud gözəlliyi, xüsusilə yaradıcı insanları vəcdə gətirməyə bilməz. Bu məkan şah gözəlliyi ilə bizim zövqümüzü oxşadı. Onu da deyim ki, Naxçıvan Muxtar Respublikası



Ali Məclisinin Sədri cənab Vasif Talıbovun həyata keçirdiyi tədbirlər sayəsində Batabat indi Naxçıvan üçün təkcə turizm məkanı deyil, həm də böyük tədbirlərin keçirildiyi mərkəzə çevrilib. Mətbuatdan da məlum olduğu kimi, Batabat yaylağında bayramlar münasibətilə konsert proqramlarının təşkil edilməsi ənənə halını alıb. Açıq havada keçirilən bu mədəniyyət tədbirləri böyük əhəmiyyətə malikdir, ona görə ki, turizm tərəfdən diqqəti Batabata yönəltmək daha əlverişlidir. Dünən biz Azərbaycanın digər yerlərindən, xüsusilə də Bakı şəhərindən insanların Batabata axışdığını gördük, bu sevindirici haldır. Düşünürəm ki, Batabat yaxın dövrdə Azərbaycanın ən cəlbedici turizm mərkəzindən biri olacaq. Naxçıvan şəhəri ilə Batabat arasındakı havanın temperatur fərqi 12-15 dərəcədir. Yarım saat ərzində 35 dərəcə isti iqlimdən 15 dərəcə sərin iqlimə keçmək yay mövsümündə bir möcüzədir. Ümumiyyətlə, 11 iqlimin 7-si Naxçıvanda var, Arazqırağından Batabata qədər gedən 60 kilometr məsafədə 7 iqlimi müşahidə etmək olar. Məsələn, Şərurda artıq göycə sovuşub, Biçənəkdə amma hələ göycə yetişməyib. Ona görə də Naxçıvanda qısa məsafədə 7 iqlimin şahidi olmaq elə buradakı turizm potensialının zənginliyindən xəbər verir. Naxçıvanın gözəlliklərini bütün dünyaya göstərmək lazımdır. Dünyanın çox sayda ölkələrində olmuşam, çoxlu gözəlliklər görmüşəm, Batabatda gördüyüm gözəlliyi dünyanın heç bir yerində görməmişəm, Batabatı Naxçıvanın bir buketi kimi bütün dünyaya göstərmək lazımdır. Mən Naxçıvandakı sistemli, planlı, yüksək memarlıq keyfiyyətinə malik olan inkişafı dünyada çox az müşahidə etmişəm. Naxçıvan yüksək keyfiyyətlə və zövqlə qurulub tikilir, böyüyür, inkişaf edir, turizm imkanları genişlənir, Naxçıvan dünyaya açılan qapıdır. Bildiyiniz kimi, Zəngəzur dəhlizinin, Bakı-Tiblisi-Qars, Qars-İqdır-Sədərək-Naxçıvan dəmir yollarının açılması gözlənilir. Mətbuatda oxudum ki, Naxçıvan-Məşhəd dəmir yolu qatarı bərpa olunacaq. Bütün bunlar Naxçıvanı tranzit mərkəzə çevirəcək. Ən qədim klassik təlimdə renosans – intibahın baş verməsi üçün zəruri olan şərtlərdən biri məkanın tranzit mərkəz olmasıdır. Bu həmin yerə iqtisadi və mədəni inkişaf gətirir. Müstəqillik illərində də aparılan dövlət siyasəti nəticəsində Naxçıvan yeni böyük intibah diyarına çevrilib. Zəngəzur dəhlizinin açılması isə Naxçıvanın daha da böyük intibaha qovuşmasında, həm iqtisadi, həm mədəni inkişafının güclənməsində, həm də turizm potensialının genişlənməsində böyük rol oynayacaq. Fəxr edirəm ki, doğulduğum belə bir gözəl diyarı mənimlə gələn görkəmli ziyalılarımız da gördülər.

Burada olarkən ***Bakı Musiqi Akademiyasının rektoru, Xalq artisti Fərhad Bədəlbəyli*** ilə də həmsöhbət olmaq imkanı qazandıq: – Naxçıvana səfərimdən çox illər keçib. Budəfəki gəlişimdə çox təəccübləndim. Etiraf edim ki, Naxçıvanı tanımadım, elə bildim ki, Avropaya gəlmişəm. Ancaq bir şərtlə, Avropada belə təmizlik yoxdur. Nə Parisdə, nə Londonda, nə də başqa şəhərlərdə. Naxçıvan dünyada nümunəvi şəhər olmalıdır. Bütün dünya üçün. Bakı üçün də, London üçün də, Paris üçün də... Hər şey çox böyük zövqlə qurulub. Baxın elə bu mehmanxana. Memarlıq cəhətdən ən yüksək səviyyədədir. Bütün tikililərdə milli ruh var. Düşünürəm ki, Zəngəzur dəhlizi açıldıqdan sonra buraya çoxlu turistlər səfər edəcək. Sizi inandırım ki, dünyanın hər yerindən Naxçıvana insanlar axışacaq.

Dünən Batabatda Zorbulaqdan nə qədər su içdik, doya bilmədik. Musiqisi Elza İbrahimovaya məxsus "Ey Vətən" mahnısında



deyildiyi kimi: "Dağlarına düşən şehdən, çöllərinə əsən mehdən doya bilmirəm, ey Vətən..." Doya bilmirdim Batabatdan. İsa müəllimlə hər dəfə Bakıda tədbirlərdə görüşərkən deyirdim, İsa müəllim, Batabatın Zorbulağının suyundan içmək istəyirəm. Nəhayət, arzularım həyata keçdi. Batabatdakı Üzən ada, zəngin gül-çiçək, tər-təmiz hava qədər Zorbulağın suyu da ecazkardır, ləzizdir. İnsan içdikcə içmək istəyir. Ümumiyyətlə, dünyada nə qədər möcüzə varsa, Batabat da onların sırasındadır. Oradakı çiçəklər o qədər gözəl idi ki, insan toxunmağa qıymırdı. Batabatın ən gözəl vaxtında gəlmişdik bura. Hava çox gözəl idi. Birdən-birə yağış yağdı, gün çıxdı, çən gəldi, yenidən yağış yağdı. Bir gün içində biz orada bir neçə iqlimi müşahidə etdik. Sanki Batabatda bütün gözəlliklərin şahidi olaq deyə, orada hər şey proqramlanmışdı.

Bir məqamı da diqqətinizə çatdırmaq istərdim ki, dünən mən sürücülərə fikir verdim, necə diqqətlə, necə mədəniyyətlə sərnişinlərlə rəftar edirlər. Hamısı da eyni rəngli taksidə, eyni geyimdə. Təsəvvür edə bilirsiniz, buradakı taksi sürücüləri belə nizam-intizamı qoruyur. Bir yerdə ki nizam-intizam var, orada mədəniyyət var. Bu, çox vacibdir, böyük mədəniyyətdir. Mən xoşbəxtəm ki, Naxçıvanı 10 il sonra bu görkəmdə, bu simada gördüm.

Muxtar respublikada mədəniyyətə, milli dəyərlərimizə, sənət adamlarına göstərilən dövlət qayğısından kifayət qədər xəbərdarıq. Ümidvaram ki, tez bir zamanda Bakıdan Naxçıvana mədəniyyət kollektivlərinin, incəsənət xadimlərinin qastrolları təşkil olunacaq. Bu məni bir mədəniyyət adamı kimi qəlbən çox sevindirər. Çünki Naxçıvan mədəniyyəti daim yaşamalıdır, mədəniyyət həyatı daim inkişaf etməli, daha da zəngin olmalıdır.

Çox keçmədi ki, ***Azərbaycan Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı Anar*** da ziyalıların bir araya yığışdığı foyeyə gəldi.



Onunla da söhbətimiz yaddaqalan oldu: – Naxçıvan Azərbaycanın dilbər guşəsidir. Qədim tarixi olan, böyük insanlar yetirən bir diyardır. Ona görə də buraya hər dəfə gələndə biz elə bil müqəddəs torpağa gəlirik. Bu dəfə görkəmli akademik İsa Həbibbəylinin dəvətilə ziyalı dostlarımızla birlikdə Naxçıvana gəldik. Batabatda olduq, buz bulaqlarından içdik. Sonuncu dəfə ssenarisini yazdığım "Cavid ömrü" filminin təqdimatı zamanı Naxçıvanda olmuşam. Onu deyim ki, həmin vaxtdan indiyə qədər Naxçıvanda böyük dəyişikliklər baş verib. Küçələr, yollar abadlaşıb, binalar yeni görkəm alıb. İnsan bunları görəndə könlü açılır.

Söhbətimizə qoşulan ***Azərbaycan Respublikasının Xalq rəssamı, Azərbaycan Rəssamlar İttifaqının sədri Fərhad Xəlilov*** da məmnuniyyətlə söhbətə qoşuldu: – Naxçıvanla bağlı mənim təəssüratlarım başlayır 1953-cü ildən, bunları yazsanız qəzetə sığmaz. Ona görə də istərdim ki, budəfəki səfərimizdən danışım. Naxçıvana tez-tez gəlirəm. Hər dəfə gələndə buradakı dəyişikliklərin şahidi oluram. Naxçıvanda inkişaf yüksək sürətlə gedir. Qaldı ki, Naxçıvanın təbiətinə bir rəssam üçün bu mənzərələr əsl ilham mənbəyidir. Hər dəfə gələndə bu torpaq elə bir doğmalıq bəxş edir ki insana, elə hiss edirsən, qalacaqsan Naxçıvanda, heç getməyəcəksən. Adamı heyran edir, məftun edir bu gözəlliklər özünə... Burada fəaliyyət göstərən Rəssamlar Birliyinin gördüyü uğurlu işlərlə bağlı da fikirlərimi sizinlə paylaşmaq istərdim. Birlikdə fəaliyyət göstərən rəssamlar ölkə əhəmiyyətli tədbirlərdə çox fəal iştirak edirlər. Burada çox yaxşı rəssamlar yetişib. Xüsusilə də gənc rəssamlar çox istedadlıdırlar. Ümumiyyətlə, hansı tərəfdən baxırsan bax, hər şey çox yaxşıdır bu diyarda. Bu uğurlar insanı sevindirir.

Batabat isə deyə bilərəm ki, bir rəssam fırçasına ruh verib, canlandıracaq gözəllikdədir. O yerdə insanın yaradıcılığı daha da coşub, daşır. Bir sözlə, Batabat Allahın Naxçıvana bəxş etdiyi bir ərmağandır.

*...Bəli, Azərbaycanın görkəmli, sayılıb-seçilən ziyalıları ilə bir araya gələ bilməyin, onlarla həmsöhbət olmanın sevinc, qürur və xoşbəxtlik hissini, ancaq bir jurnalist duya bilər. Nə qədər yazsam da, bilirəm ki, bu hissi heç bir sözlə ifadə edə bilməyəcəyəm. Hər bir jurnalist həmkarıma bu hissləri yaşamağı arzu edirəm. Son olaraq qısa vaxt ərzində zaman ayırıb, Naxçıvanla bağlı xoş təəssüratlarını "Şərq qapısı" qəzeti ilə paylaşdıqları üçün dəyərli ziyalılarımıza minnətdarlığımı bildirirəm.*

**Gülcamal TAHİROVA**



Jurnalistin qeydləri

# Culfa torpağının rəmzi

*Təbiət və insan! Bu sonsuz, əbədi münasibətin yaşı bilinmir. Təbiət insanın əzəl dünyası, ömür yoludur. Təbiət anadır, sevgidir, sevincdir. Təbiət müqəddəs dünyamızdır – hamımızındır...*

Culfa rayonunun təkrarolunmaz təbiət mənzərələri, tarixi abidələri sırasında adı dillərə dastan olan bir çay var ki, gözəllik simvolu, ruzi-bərəkət rəmzidir. Başlanğıcını uca dağların sinəsində daim qaynayan şəffaf, buz kimi soyuq sulu bulaqlardan götürən və hündür aşırımlardan çağlaya-çağlaya kükrəyib axan bu çayın adı Əlincəçaydır. Sıldırım, yalçın qayaların zirvəsində qartalların qanad çalıb süzdüyü əzəmətli Əlincəqala ilə eyni adı daşıyan bu çay lap qədimlərdən burada yaşayan insanların su ilə təminatında həyat mənbəyi rolu oynayıb. Əlincəçaydan bu gün də rayonun su təchizatında geniş istifadə olunur. Çayboyu yerləşən kəndlərimizdə bağlar, bostanlar, tarlalar, min hektarlarla əkin sahələri bu çayın suyu ilə suvarılır.

Başlanğıcını dəniz səviyyəsindən 2800 metr hündürlükdə yerləşən Zəngəzur silsiləsindəki Dəmirli dağlarının yamacından götürən Əlincəçay Xəzinədərə və Ləkətağ çaylarının suyu ilə qidalanaraq Araz çayına qədər uzanır.

Gurultulu, şən nəğmə kimi dağların qoynundan axıb gələn, torpağımıza, həyatımıza, yaşayışımıza can verən çayboyunca rayonumuzun 16 kəndi yerləşir. Demək olar ki, bu kəndlərin hər birində olmuşam. Doğma təbiətimizə xüsusi yaraşıq verən Əlincəçay bu yerlərin pənahı, torpaqların yaşam mənbəyidir. Bu çay yayın qızmar istisində də, qışın soyuğunda da zümzüməylə axır, insanların həyatında ümid şöləsinə çevrilir. “Kitabi-Dədə Qorqud” dastanında Qazan xanın dediyi kimi: “Su haqq didarını görmüşdür, qoy yurdumu sudan xəbər alım”.

İlin bütün fəsillərində, xüsusən yaz aylarında Əlincəçay gözəlliyə meydan oxuyur, sözdən, heyrətdən, hətta nəğmə harayından yüksəkdə dayanan bir möcüzəyə dönür. Bu dağlara, yaşıl örpəyə bürünmüş geniş taxıl zəmilərinə, bağ-bağata baxdıqca Əlincəçay daha da ilhamlanır, məcrasına sığmır, aşıb-daşır, ətrafa həyat bəxş edir. Hərdən gur, hərdən də sakit axan çayın suyu hər iki sahilini otlaqlara, yaşıllıqlara bürüyür.

Çay kənarı ilə addımladıqca bu yerlərin təbiətinin qeyri-adiliyi, ağıla sığmayan, xəyala gəlməyən möcüzələri, əcdadlarımızın pənahı, tükənməyən var-dövləti, min hikməti, bir sözlə, sirri açılmayan, söylənməmiş min mətləbi yada düşür. Qarşıda isə hər daşında tarix yaşayan arxalı dağlar görünür, insanın ürəyini pərvaz edir. Buludsuz, ucsuz-bucaqsız, gömgöy səma sanki əbədiyyət tablosudur. Min illərdir, insanı düşündürür, heyrətləndirir...Və bir qədər aşağıda göy üzünə şişlənən dağların qarlı zirvələrindən sanki sonsuzluğun davamı kimi bir irmaq baş alaraq yola çıxar. Əlincəqaladan, Haçadağdan qanadlanan qartalın nəhəng kölgəsi hərdən bu çayın üzündə qanad çalmadan süzər, sonra yox olub gözdən itər. Bizim dağların gözəl, Əlincəçay adlı mələk qızı gah sakit-sakit ləpələnib axar, gah da sıldırım qayaların dibindən qıvrılıb irəli şığıyar. Az keçər, çox keçər bir genişliyə çatıb sakitləşər. Bir çox kəndlərimizin geniş çöllərini öpüb sığallayar, oxşayar... torpağa can gələr, bərəkət gələr. Bu yerdə isə şair dostum Qafar Qəribin şeiri yada düşər:

*Dəmirlinin bulaqları qaynağın,*
*Yenə coşub-çağlayırsan bu bahar.*
*Səsin qulağımda nəğməyə dönür,*
*Belə gözəl şərqi, söylə, harda var?*

*Ləkətağda, Ərəfsədə, Milaxda*
*Can verirsən, bar verirsən torpağa.*
*Əliaçıq tanıyıram səni mən,*
*Səxavətin var, verirsən torpağa.*

*Sən bizim kəndlərin sərvəti, varı.*
*İllərdir, laylatək nəğmə deyirsən*
*Qazançı körpüsü, Culfa səmtinə,*
*Əlincə, Xoşkeşin, Saltaq kəndinə.*






Bu mənzərə insanın təbiətə büsbütün qovuşduğu bir möcüzədir. Əlincəçay isə bu günə kimi görmədiyi gözəlliklər qarşısında sanki valeh olmuş, axarını saxlamış, bu yurdun qoynunda ucalan gözəlliklərdən ilhamlanaraq həzin-həzin oxuyur firavan həyatın, qayğısız günlərin xoş nəğməsini...

Əlincəçay boyunca irəlilədikcə gözəl mənzərələr əvəz edir. Əlincəçayın sahilində yerləşən kəndlərin gözəlliyi göz oxşayır, yuxarı qalxdıqca sərin meh qoynumuza dolur, ürəyimizə təravət bəxş edir. Çayın sahilləri boyunca düzülən Camaldın, Ərəzin, Qızılca, Əbrəqunus, Kırna, Göydərə, Saltaq, Bənəniyar kəndləri bir-birini arxada qoyur. Ətrafda Xoşkeşin, Əlincə, Xanəgah, Qazançı, Milax, Ərəfsə kəndləri görünür. Kəndlər abad, yaraşıqlı, insanlar isə şən, firavan... Haradansa, lap uzaqlarda qızılgülün həsrəti ilə ara-seyrək bülbülün nəğməli səsi gəlir. Xəyalı coşduran, ruhu qidalandıran bülbülün Vətən nəğməsi, avazlı səsi...

Göz işlədikcə uzanan taxıl zəmiləri, yaşıllıqlar, bağlar, dərələr, zirvələr qəlbə fərəh, gözə nur çiləyir. Səmanın maviliyi, genişliyi, aydınlığı da bir ayrı aləmdir. Xanəgah kəndində körpünün üstündə dayanıb Əlincəçayın şıltaq ləpələrinə baxıram. Düşüncəm məni tarixin dərinliklərinə, çox-çox uzaqlara aparır. Bu yerdə məğrur qayaların, səngər qalaların laylasını sanki Əlincəçayı çalır. Bu çayın üstündə Nəiminin ruhu gəzir. Gözümün önündə Əlincəqalanın alınmazlığı, məğrurluğu canlanır.

Bu yerlərdə Əlincəçay həyatdır, könül xoşluğu, ürək rahatlığıdır. Əlincəçay bu yerlərin təbiətinə yaraşıq verən, havasını saflaşdıran, təmizləyən, bol-bəhrəli taxıl zəmilərini, bağ-bağatı cana gətirən bir dünyadır. Rayonumuzun ərazisində yerləşən Bənəniyar Su Anbarını, Qazançı gölünü bol su ilə təmin edən, min hektarlarla ərazinin, əkin sahələrinin suvarılmasında mühüm rol oynayan Əlincəçay ətraf kəndlərin içməli suya olan tələbatında da mühüm rol oynayır. Əlincəçay vadisindən Xoşkeşin, Göydərə, Saltaq, Əlincə və digər kəndlərə kaptaj üsulu ilə çəkilmiş içməli su xətləri bu yurd yerlərində məskunlaşan insanların məişət şəraitinin yüksəldilməsinə, içməli və suvarma suyu ilə təminatının yaxşılaşmasına xidmət edir.

Əlincəçayın suyu ilə Kırna, Saltaq və Camaldın kəndlərində tarixən mövcud olmuş və Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin təşəbbüsü ilə yenidən həyata vəsiqə alan su dəyirmanları da fəaliyyət göstərir.

Əlincəçay üzərində tarixə şahidlik edən XVII əsrin tarixi abidələri – Qazançı və Ləkətağ körpüləri də Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı ilə bərpa olunub, tarixin bu yadigarları həyata yenidən vəsiqə alıb.

*Budur! Əlincəçayla sağollaşıram. Dağlar, adından ad almış Əlincə kəndi, Əlincə qalası arxada qalır. Ancaq nəğməkar çayın səsi hələ də qulağımdadır. Bu yerlərdən ulu bir mahnı kimi axıb keçən Əlincəçayın nəğməsinə bu yerlərin zəhmətkeş insanları da səs verər və bu səs xeyir-bərəkət, bolluq və firavan həyatın səsidir...*

**Alim AĞAYEV**
***“Arazın səsi” qəzetinin redaktoru***

---

“Sənaye ili” – 2022

# Meyvəçiliyin və tərəvəzçiliyin inkişafı yerli emal müəssisələrinin fəaliyyətini stimullaşdırır

## *“Gəmiqaya Meyvə Məhsulları” Məhdud Məsuliyyətli Cəmiyyəti bu işə öz töhfəsini verir*

***Meyvəçilik tarixən Naxçıvanda əhalinin əsas məşğuliyyət sahələrindən olub. Bu regionun iqlimi, torpaqların münbitliyi meyvəçiliyin və tərəvəzçiliyin inkişaf etdirilməsi üçün münbit zəmin yaradıb. Son illərdə muxtar respublikamızda kənd təsərrüfatının müxtəlif sahələrinin inkişafı ilə bağlı həyata keçirilən kompleks tədbirlər isə bu sahədə də böyük uğurların qazanılmasına geniş imkanlar açıb. Xüsusilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2021-ci il 12 mart tarixli Sərəncamı ilə təsdiq olunmuş “2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı”nın mühüm rolu vardır. Proqramın icrası çərçivəsində təkcə elə 2021-ci ildə 145,6 hektar sahədə meyvə bağı salınıb.***



Yeri gəlmişkən ötən il muxtar respublikada kənd təsərrüfatı məhsullarının istehsal həcmi 5,3 faiz artıb ki, burada da meyvə-tərəvəz məhsullarının istehsalı mühüm yer tutur. Bununla bərabər tədarük olunan meyvə-tərəvəz məhsullarının saxlanması üçün soyuducu anbarların yaradılması, torpaq mülkiyyətçilərinə öz məhsullarını satmaq üçün hər həftənin şənbə-bazar günləri muxtar respublikada təşkil olunan kənd təsərrüfatı məhsulları yarmarkalarında müvafiq yerlərlə təmin olunması, ailə təsərrüfatı məhsulları festivallarının təşkili və sair bu kimi tədbirlər məhsul istehsalçılarına öz məhsullarını satmaq üçün böyük imkanlar açır. Təsadüfi deyil ki, belə tədbirlər ailə təsərrüfatları sahiblərinin, fərdi fermerlərin bu işə marağını ildən-ilə daha da artırır.

Bunu da nəzərə alaq ki, meyvəçiliyin inkişafı son illərdə muxtar respublikamızda yeni emal müəssisələrinin yaradılmasına da imkan verib. Belə müəssisələrdən biri də “Gəmiqaya Meyvə Məhsulları” Məhdud Məsuliyyətli Cəmiyyətidir. Müəssisənin direktoru *Yunis Yaqubov* bizimlə söhbətində bildirdi ki, bu istehsal müəssisəsində müxtəlif meyvə şirələri, meyvə püreləri, şərablar istehsal olunur. Müəssisənin illik istehsal gücü 120 dekalitr meyvə şirəsi və şərab məhsullarıdır. Həmçinin burada məşhur “Tetra Pak” firmasının istehsal gücü saatda 7 ton 1 litrlik və 200 millilitrlik taralar olan müasir texnoloji avadanlıqları da quraşdırılıb. Nəfis tərtibatla bəzədilmiş karton taraların üzərində Azərbaycan, ingilis və rus dillərində məhsulun istehsal və son istifadə tarixləri, mənşəyi və standart göstəriciləri haqqında məlumatlar əks olunur.

İstehsal prosesinə gəldikdə isə müəssisədə bütün işlər əl dəymədən,



müasir texnoloji avadanlıqların köməyi ilə yerinə yetirilir. Belə ki, müəssisəyə gətirilən meyvə məhsulları ilk olaraq yuyulma və təmizlənmə prosesinə cəlb olunur, sonra müvafiq texnoloji vasitələrdən keçərək sıxılaraq püre halına gətirilmə, filtrlərdən keçərək süzülmə, qatılıq və şəkər faizinin yoxlanılması, doldurularaq qablaşdırılması və digər bu kimi mərhələlərdən keçir. Ümumilikdə isə istehsal prosesinə və keyfiyyətə nəzarət kompüter texnologiyasına əsaslanır. Yüksək keyfiyyət standartlarına və gigiyenik qaydalara uyğun olaraq müxtəlif həcm və çeşidlərdə istehsal olunan meyvə şirələri karton taralarda qablaşdırılaraq bu gün ölkə bazarında və muxtar respublikamızda satışa çıxarılır. Yaxın zamanlarda isə məhsulların yenidən Türkiyə və Gürcüstan bazarlarına çıxarılması təmin olunacaq. Artıq bu istiqamətdə işlər yekunlaşıb, lazımi addımlar atılıb.

“Gəmiqaya Meyvə Məhsulları” Məhdud Məsuliyyətli Cəmiyyətinin direktoru Yunis Yaqubovla söhbətimizin əsas istiqamətlərindən biri də müəssisə üçün xammal potensialının yaradılması ilə bağlı oldu. Müsahibimiz qeyd etdi ki, bu gün muxtar respublikamızda meyvəçilik özünün yeni inkişaf mərhələsinə qədəm qoyub. Salınan meyvə bağlarının sahəsi ildən-ilə genişlənir, məhsul tədarükü artır. Bu işdə həm torpaq mülkiyyətçiləri, həm də rəsmi qurumların kollektivləri mühüm rol oynayırlar. Əldə olunan məhsulun satışına gəldikdə isə biz də müəssisə olaraq bu işə öz töhfəmizi verməyə çalışırıq. Apardığımız müşahidələrdən də məlum olub ki, bəzən ucqar bölgələrimizdə və yaxud gediş-gəlişi o qədər də intensiv olmayan yol kənarlarında yetişən meyvələr vaxtında tədarük olunmadığından məhsul sahibi bunu pula çevirə bilmir. Bəzən də elə olur ki, məhsul bazar üçün o qədər də xoş görüntüyə sahib olmadığından sahibkar onu satmaq fikrindən daşınır. Əslində isə biz elə sizin qəzetin vasitəsilə müraciət edərək bildirmək istəyirik ki, emal müəssisəsi olaraq təsərrüfat sahiblərinə bu işdə öz köməyimizi təklif edirik. Biz həmin məhsulu nağd şəkildə təsərrüfat sahibindən alıb onu istehsala cəlb edirik. Ehtiyac yaranarsa, həmin təsərrüfatçını nəqliyyat vasitəsilə də təmin edə bilərik. Yetər ki, tədarük olunan məhsul sahibinə qazanc gətirsin, bu işə maraq artsın. Nəticədə, bizim üçün də yerli xammal potensialı olsun.

*Bəli, bu gün muxtar respublikamızda meyvəçilik təsərrüfat sahiblərinin geniş məşğulluq sahələrindəndir. Hazırda bu sahənin inkişaf etdirilməsi üçün hərtərəfli şərait mövcuddur. Yuxarıda da qeyd olunduğu kimi, yerli emal müəssisələrimizin bu işə töhfəsi təsərrüfat sahibləri qarşısında yeni imkanlar açır. Bu isə yerli məhsullarımızın ixracı üçün böyük potensial yaratmaqla yanaşı, həm də milli iqtisadiyyatımızın inkişafına yaşıl işıq yandırır.*

**Səbuhi HƏSƏNOV**
***Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti***



Naxçıvan Dövlət Universitetinin Xarici dillər fakültəsinin Roman-german dilləri kafedrasının baş müəllimi Əzizə Əliyeva və həmin kafedranın müəllimi Hidayət Əkbərov

## Fransız dili müəllimləri “Fransız şəhərciyi” ixtisasartırma təlimində iştirak ediblər

İsmayıllı rayonunda “Fransız şəhərciyi” adlı ixtisasartırma təlimində iştirak ediblər.

Fransanın Azərbaycandakı səfirliyinin nəzdində fəaliyyət göstərən Fransız İnstitutunun Azərbaycanın məktəb, lisey və universitetlərində fəaliyyət göstərən 75 fransız dili müəllimi üçün təşkil edilən təlimdə digər Azərbaycan universitetləri ilə yanaşı, Naxçıvan Dövlət Universitetindən də müəllimlər iştirak ediblər. Bezanson Universitetinin Tətbiqi Dilçilik Mərkəzinin fransız dili xarici dil üzrə ekspertləri təlimçi heyətin üzvləri sırasında olub.

Nəzəri biliklərlə yanaşı, praktik məşğələlərin də həyata keçirildiyi təlimdə fransız dilinin tədrisini yaxşılaşdırmaq məqsədilə müxtəlif innovativ metodlar haqqında məlumat verilib.

Fransanın Azərbaycandakı səfiri cənab Zakari Qros təlim iştirakçılarının fransız dilinin tədrisi ilə bağlı suallarını cavablandırıb. Təlimin sonunda iştirakçılara sertifikat təqdim olunub.

Qeyd edək ki, ikinci dəfədir, təşkil olunan təlim ilk dəfə olaraq bu ilin 31 yanvar-4 fevral 2022-ci il tarixlərdə baş tutub. Təlimə Naxçıvan Dövlət Universitetinin müəllimləri Əzizə Əliyeva və Hidayət Əkbərov da qatılıb.

***Naxçıvan Dövlət Universitetinin Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsi***

## İkigünlük təlimə yekun vurulub

Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyi yanında Maliyyə Tədris Mərkəzində keçirilən “Büdcə təşkilatlarında mühasibat uçotunun təşkili” adlı təlimə Naxçıvan Muxtar Respublikası Dövlət Nəqliyyat Xidməti, Naxçıvan Muxtar Respublikası Hesablama Palatası, Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzi, Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyası və digər təşkilatlardan 23 nəfər maliyyə-mühasibatlıq işçisi cəlb olunub.

Mərkəzin direktoru Mehriban İmanova mövzunun aktuallığı və mahiyyəti barədə danışıb.



Təlimin ilk günü Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidmətinin Babək Rayon Vergilər İdarəsinin əməkdaşı Cavid Ələkbərov “Büdcə təşkilatlarında maliyyə hesabatlarının tərtib edilməsinin nəzəri və praktik izahı” modulu ətrafında çıxış edərək müxtəlif təsərrüfat əməliyyatlarının mühasibat hesablarında qeyd olunmasının elmi əsaslarını izah edib.

Növbəti gün “Büdcə təşkilatlarının təqdim etməli olduğu vergi bəyannamələrinin hazırlanması” modulu ətrafında mobil bankçılıqla köçürmələrin yaradılması, əməkhaqqının ödənilməsi, təşkilatların muzdlu ödəmə mənbəyindən tutulan vergi və sosial sığorta haqlarına edilən güzəştlər, əmək qabiliyyətinin müvəqqəti itirilməsinə görə ödənişlərin vergiyə cəlb olunması haqqında geniş məlumat verilib, müvafiq praktik tapşırıqlar yerinə yetirilib.

Təlimin sonunda iştirakçılara sertifikatlar təqdim edilib.

***Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyinin mətbuat xidməti***

## Naxçıvan Muxtar Respublikası üzrə 4 iyul 2022-ci il tarixə taxıl biçininin gedişinə dair məlumat

| S/s | Şəhər və rayonlar | Biçiləcək taxıl sahəsi (hektar) | Biçilən taxıl sahəsi (hektar) | Məhsul istehsalı (ton) | Məhsuldarlıq (sentner/ hektar) |
|---|---|---|---|---|---|
| 1. | Naxçıvan şəhəri | 992 | 942 | 2730 | 29,0 |
| 2. | Şərur rayonu | 4038 | 2069 | 8036 | 38,8 |
| 3. | Babək rayonu | 11094 | 6544 | 20128 | 30,8 |
| 4. | Ordubad rayonu | 1607 | 1533 | 4449 | 29,0 |
| 5. | Culfa rayonu | 5711 | 4859 | 14759 | 30,4 |
| 6. | Kəngərli rayonu | 6056 | 4201 | 12545 | 29,9 |
| 7. | Şahbuz rayonu | 1527 | - | - | - |
| 8. | Sədərək rayonu | 2441 | 1515 | 5633 | 37,2 |
| Naxçıvan Muxtar Respublikası üzrə cəmi: | | 33466 | 21663 | 68280 | 31,5 |

## Atletika və gimnastika üzrə birincilik keçirilib



*Əlahiddə Ümumqoşun Ordunun zabiti, polkovnik-leytenant Vahid Məmmədov birinciliyin şərtlərini və təhlükəsizlik qaydalarını iştirakçılara çatdırdıqdan sonra yarışa start verilib.*

Hərbi qulluqçuların sürət, çeviklik və dözümlülüyünü yoxlamaq, güclü idmançı və komandaları müəyyən etmək məqsədilə keçirilən birincilikdə 16 komandadan 246 idmançı mübarizə aparıb. Atlet və gimnastlar turnikdə dartınma və aşaraq dayağa qalxma, paralel qollarda dayaq vəziyyətində qolların bükülüb açılması, uzunluğa və hündürlüyə tullanma, 100 və 3000 metr məsafələrə qaçış, 400 metr məsafəyə estafet qaçışı yarışlarında özlərini sınayıblar.

Ümumi nəticələrə əsasən komanda hesabında 1-ci yerdə Daxili Qoşunların “Naxçıvan” Əlahiddə Əməliyyat Briqadasının komandası, 2-ci və 3-cü yerlərdə isə xüsusi təyinatlılar qərarlaşıb.

Fərdi hesabda qalib gələn idmançı hərbi qulluqçulara fəxri fərman, ilk üç pillədə qərarlaşan komandalara isə kubok və diplomlar təqdim edilib.

**Kənan CƏLİLOV**

## 2022-ci ilin iyul ayı ərzində Məşğulluq mərkəzləri tərəfindən keçiriləcək əmək yarmarkalarının qrafiki

| S/ № | Məşğulluq mərkəzləri | Yarmarkanın keçiriləcəyi yer | Yarmarkanın keçirilmə tarixi | Yarmarkanın keçirilmə vaxtı |
|---|---|---|---|---|
| 1 | Kəngərli rayonu | Kəngərli Rayon Mədəniyyət Şöbəsinin binası | 06.07.2022 | $10^{00}$ |
| 2 | Sədərək rayonu | Sədərək Rayon Mədəniyyət Şöbəsinin binası | 07.07.2022 | $10^{00}$ |
| 3 | Ordubad rayonu | Ordubad Rayon Mədəniyyət Şöbəsinin binası | 08.07.2022 | $10^{00}$ |
| 4 | Culfa rayonu | Məşğulluq Mərkəzinin inzibati binası | 13.07.2022 | $10^{00}$ |
| 5 | Şərur rayonu | Şərur Rayon Mədəniyyət İdarəsinin inzibati binası | 14.07.2022 | $10^{00}$ |
| 6 | Babək rayonu | Babək Rayon Mədəniyyət Şöbəsinin binası | 15.07.2022 | $10^{00}$ |
| 7 | Naxçıvan şəhəri | Naxçıvan Regional Peşə Tədris Mərkəzi | 18.07.2022 | $10^{00}$ |
| 8 | Şahbuz rayonu | Şahbuz şəhər “Araz” kinoteatrının binası | 19.07.2022 | $10^{00}$ |

## Naxçıvan Muxtar Respublikasının Dövlət İmtahan Mərkəzi Naxçıvan Muxtar Respublikasında müəllimlərin dövlət musiqi təhsili müəssisələrinə işə qəbulu üçün müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər 5 iyul-5 avqust 2022-ci il tarixlərdə Naxçıvan Muxtar Respublikası Dövlət İmtahan Mərkəzinin internet portalında *(www.dim.nmr.az)* “şəxsi kabinet” bölməsinə daxil olaraq elektron müraciət formasını doldurmaqla qeydiyyatdan keçməlidirlər.

Namizədlər 90 manat ödəniş məbləğini “şəxsi kabinet” vasitəsilə bank kartları ilə ödəyə bilərlər. Digər halda həmin məbləğ Dövlət İmtahan Mərkəzinin “Naxçıvanbank” Açıq Cəhmdar Cəmiyyətindəki bank hesabına (AZ50NAXB36015000024840000AZN) ödənməli və ödənişə dair qəbz həftənin iş günləri saat $9^{00}$-dan $12^{30}$-dək və $14^{00}$-dan $17^{30}$-dək mərkəzə təqdim edilməlidir.

Namizəd bir neçə vakant vəzifənin tutulması üçün müraciət edə bilər.

Namizədlər elektron müraciət formasını doldurarkən iddia etdikləri vakant vəzifələrin tutulma şərtlərini nəzərə almalıdırlar.

Qeydiyyatdan keçməkdə çətinlik çəkən namizədlər Dövlət İmtahan Mərkəzinə gəlməklə müraciət edə bilərlər.

*Maraqlananlar Dövlət İmtahan Mərkəzinin (036) 545-65-71 nömrəli əlaqə telefonu və ya dim@nmr.az elektron poçt ünvanı vasitəsilə ətraflı məlumat əldə edə bilərlər.*

| Vəzifə kodu | İxtisas | Vakant yerlərin sayı | Vakant saatların miqdarı |
|---|---|---|---|
| **1. Naxçıvan Şəhər Mədəniyyət İdarəsi üzrə:** | | | |
| **1.1. Naxçıvan Şəhər Məmməd Məmmədov adına 1 nömrəli Uşaq Musiqi Məktəbi** | | | |
| 681114 | Fleyta | 1 | 6 |
| 681134 | Klarnet | 1 | 12 |
| **1.2. Naxçıvan Şəhər Uşaq Musiqi və İncəsənət Məktəbi** | | | |
| 681234 | Klarnet | 1 | 6 |
| 681248 | Violonçel | 1 | 6 |
| **1.3. Naxçıvan Şəhər Ərtoğrol Cavid adına Uşaq Musiqi və Bədii Sənətkarlıq Məktəbi** | | | |
| 681514 | Fleyta | 1 | 6 |
| 681536 | Qanun | 1 | 16 |
| **Cəmi:** | | **6 yer** | |
| **2. Şərur Rayon Mədəniyyət İdarəsi üzrə:** | | | |
| **2.1. Şərur Şəhər Bəhruz Kəngərli adına Uşaq İncəsənət Məktəbi** | | | |
| 682112 | Balaban | 1 | 8 |
| 682122 | Xanəndəlik | 1 | 6 |
| 682134 | Klarnet | 1 | 6 |
| 682140 | Nağara | 1 | 24 |
| 682141 | Rəsm | 2 | 37 |
| 682143 | Saz | 1 | 12 |
| 682144 | Skripka | 2 | 30 |
| **2.2. Aralıq Kənd Uşaq Musiqi Məktəbi** | | | |
| 682432 | Kamança | 1 | 24 |
| 682435 | Konsertmeyster (fortepiano) | 1 | 24 |
| **2.3. Çərçiboğan Kənd Uşaq Musiqi Məktəbi** | | | |
| 682235 | Konsertmeyster (fortepiano) | 1 | 12 |
| 682246 | Tar | 1 | 8 |
| **2.4. Ələkli Kənd Uşaq Musiqi Məktəbi** | | | |
| 682332 | Kamança | 1 | 12 |
| 682335 | Konsertmeyster (fortepiano) | 2 | 48 |
| 682340 | Nağara | 1 | 6 |
| 682346 | Tar | 1 | 8 |
| **2.5. Şahriyar Kənd Uşaq Musiqi Məktəbi** | | | |
| 682635 | Konsertmeyster (fortepiano) | 1 | 10 |
| 682640 | Nağara | 1 | 12 |
| 682646 | Tar | 2 | 36 |
| **2.6. Yuxarı Daşarx Kənd Uşaq Musiqi Məktəbi** | | | |
| 682512 | Balaban | 1 | 24 |
| 682535 | Konsertmeyster (fortepiano) | 1 | 24 |
| 682546 | Tar | 1 | 18 |
| **Cəmi:** | | **25 yer** | |
| **3. Babək Rayon Mədəniyyət İdarəsi üzrə:** | | | |
| **3.1. Babək Rayon Uşaq Musiqi Məktəbi** | | | |
| 683146 | Tar | 1 | 12 |
| **3.2. Cəhri Qəsəbə Uşaq Musiqi Məktəbi** | | | |
| 683335 | Konsertmeyster (fortepiano) | 1 | 9 |
| 683336 | Qanun | 1 | 8 |
| 683340 | Nağara | 1 | 6 |
| 683343 | Saz | 1 | 6 |
| **3.3. Nehrəm Qəsəbə Uşaq Musiqi Məktəbi** | | | |
| 683237 | Qarmon | 1 | 6 |
| 683240 | Nağara | 1 | 6 |
| **3.4. Şıxmahmud Kənd Uşaq Musiqi Məktəbi** | | | |
| 683435 | Konsertmeyster (fortepiano) | 1 | 12 |
| 683436 | Qanun | 1 | 8 |
| 683443 | Saz | 1 | 14 |
| 683444 | Skripka | 1 | 6 |
| **Cəmi:** | | **11 yer** | |
| **4. Ordubad Rayon Mədəniyyət İdarəsi üzrə:** | | | |
| **4.1. Ordubad Şəhər Uşaq Musiqi Məktəbi** | | | |
| 684135 | Konsertmeyster (fortepiano) | 4 | 96 |
| 684136 | Qanun | 1 | 16 |
| 684143 | Saz | 1 | 16 |
| 684144 | Skripka | 3 | 62 |
| 684149 | Vokal | 1 | 8 |
| **4.2. Vənənd Kənd Uşaq Musiqi Məktəbi** | | | |
| 684235 | Konsertmeyster (fortepiano) | 2 | 39 |
| 684240 | Nağara | 1 | 8 |
| **Cəmi:** | | **13 yer** | |
| **5. Culfa Rayon Mədəniyyət Şöbəsi üzrə:** | | | |
| **5.1. Culfa Şəhər Uşaq Musiqi Məktəbi** | | | |
| 685112 | Balaban | 1 | 12 |
| 685140 | Nağara | 1 | 14 |
| **5.2. Bənəniyar Kənd Uşaq Musiqi Məktəbi** | | | |
| 685235 | Konsertmeyster (fortepiano) | 3 | 66 |
| **Cəmi:** | | **5 yer** | |
| **6. Kəngərli Rayon Mədəniyyət Şöbəsi üzrə:** | | | |
| **6.1. Qıvraq Qəsəbə Uşaq Musiqi Məktəbi** | | | |
| 686122 | Xanəndəlik | 1 | 6 |
| **6.2. Çalxanqala Kənd Uşaq Musiqi Məktəbi** | | | |
| 686232 | Kamança | 1 | 16 |
| **Cəmi:** | | **2 yer** | |
| **7. Şahbuz Rayon Mədəniyyət Şöbəsi üzrə:** | | | |
| **7.1. Kolanı Kənd Uşaq Musiqi Məktəbi** | | | |
| 687244 | Skripka | 1 | 6 |
| 687246 | Tar | 1 | 8 |
| **Cəmi:** | | **2 yer** | |
| **8. Sədərək Rayon Mədəniyyət Şöbəsi üzrə:** | | | |
| **8.1. Sədərək Rayon Uşaq Musiqi Məktəbi** | | | |
| 688112 | Balaban | 1 | 24 |
| 688123 | Xor | 1 | 14 |
| 688132 | Kamança | 1 | 8 |
| 688135 | Konsertmeyster (fortepiano) | 2 | 48 |
| 688143 | Saz | 1 | 16 |
| **Cəmi:** | | **6 yer** | |
| **Yekun:** | | **70 yer** | |

### *İtmişdir*

Məhərrəmov Arif Məmməd oğlunun adına Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutu tərəfindən verilmiş A-№-039311 seriya nömrəli diplom itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: *AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.*

*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

Qeydiyyat №: 575

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* Ceyhun Məmmədov

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

Tiraj: 1500. Sifariş № 591